**“Səs”.**-2013.-23 aprel.-N 72.-S.4.

## Müasir Azərbaycan tarixinin növbəti qızıl onilliyi: 2003-2013

## Prezident İlham Əliyev: “Hər bir azərbaycanlı gənc öz doğma Vətəni ilə qürur duyur...”

**Məlum olduğu kimi, Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı olaraq Cənab Prezident İlham Əliyevin 2003-2013 illərində haqlı olaraq "qızıl onillik" olaraq adlandırılan rəhbərlik fəaliyyəti, Azərbaycanın dövlətçilik tarixi baxımından əlamətdar mahiyyətə malikdir. Mən bu qısa məqalə çərçivəsində analitik aspektdən Cənab Prezidentin gənclər siyasətinin funksional mahiyyəti və roluna dair fikirlərimi təqdim edəcəm.**

Ümumiyyətlə, Cənab Prezidentin dəfələrlə vurğuladığı kimi, Azərbaycanın həm iqtisadiyyatı, həm də daxili və xarici siyasəti çoxşaxəli istiqamətdə inkişaf edir və etməlidir. Belə ki, bu istiqaməti biz, eyni zamanda, dövlət başçımızın həyata keçirdiyi gənclər siyasətində də müşahidə edirik. Təsadüfi deyildir ki, 2 fevral 1996-cı ildən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə gənclərin forumlarının keçirilməsi, ölkədə gənclər gününün qeyd olunması, gənclərimizin problemlərinin həllinə yönələn fərman və sərəncamların verilməsi, onların dövlət quruculuğu prosesinə cəlb edilməsi, müvafiq qanunların qəbulu gənclər siyasətinə dair siyasi kursun nəticələrindəndir. Məhz 2007-ci ildə Cənab Prezident ilham Əliyev tərəfindən “Azərbaycan gənclərinin xaricdə təhsili 2007-2015”, 2011-ci ildə “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramları qəbul olundu. Bundan əlavə gənclərə ipoteka verilməsinin şərtlərinin asanlaşdırılması, gənclər mərkəzlərinin tikilməsi, gənclərlə bağlı tədbirlərin Bakıda keçirilməsi kimi sərəncamlar qeyd etdiyimiz funksional siyasi kursun uğurlarındandır.

Cənab Prezident İlham Əliyevin vaxtaşırı olaraq dövlətin gənclərə dair siyasətinin funksional mahiyyət daşıdığını qeyd etməsi və bu sahədə lazımi tədbirlərin hər an görülməkdə olduğunu ifadə etməsi dövlətimizin gənclər siyasətinin dolğun şəkildə həyata keçirildiyini göstərməkdədir. Məhz 1 il bundan əvvəl Gənclər Fondunun yaradılmasını da bu sahədə məqsədyönlü siyasi düşüncənin nəticəsi hesab etmək olar. Bu bir il ərzində Gənclər Fondu müxtəlif səpkidə qrant layihələr verərək, gənclərin elmi və ictimai fəaliyyətlərində stimullar yaradılmasına şərait yaratmışdır.

**Məqsədyönlü gənclər siyasəti və uğurları**

Məhz İlham Əliyev Prezident Heydər Əliyevin gənclər siyasətinin həyata keçirilməsində misilsiz fədakarlıq göstərmişdir və bu sahədə fəaliyyətini indi də uğurla davam etdirir. 1997-ci ildə Azərbaycan Respublika Milli Olimpiya Komitəsinin prezidenti təyin olunan ilham Əliyev az vaxt içərisində həmin sahədə də yüksək təşkilatçılıq istedadına malik olduğunu göstərmişdir. Onun yorulmaz və gərgin əməyi sayəsində, qısa müddət ərzində, Azərbaycan idmanı ayağa qaldırılmış, dünya şöhrətli qazanmışdır. Azərbaycan idmançılarının beynəlxalq yarışlarda qazandığı parlaq uğurlar ilham Əliyevin başçılıq etdiyi idman hərəkatının, hər şeydən əvvəl, böyük siyasi qələbəsidir. Məhz 2012-London Yay Olimpiya Oyunları zamanı ölkəmizin idmançılarının qazandığı uğurları da bu kontekstdə qeyd etmək olar. Digər tərəfdən, Avropa Olimpiya Oyunlarının 2015-ci ildə Azərbaycanda keçirilməsi ilə bağlı verilən qərar da Azərbaycanın gənclər siyasətində, xüsusilə, idmançı gənclərin fəaliyyətləri baxımından əldə olunan uğurlardandır. Yeri gəlmişkən, qeyd etməliyəm ki, arxada qoyduğumuz 2012-ci il Cənab Prezident tərəfindən “İdman ili” elan olunmuşdur.

Təsadüfi deyildir ki, Cənab Prezident dəfələrlə öz çıxışlarında neft kapitalını insan kapitalına çevrilmə hədəflərindən bəhs etmişdir. Bu mənada, 2013-cü ilin “İnformasiya və Kommunikasiya ili” olaraq elan olunması da dövlətimizin gənclər siyasətinə də öz təsirini göstərəcəkdir. Məhz Cənab Prezidentin 15 yanvarda Nazirlər Kabinetinin 2012-ci il sosial-iqtisadi inkişafının yekunlarına dair iclasda aşağıda qeyd edəcəyimiz ifadələri bu aspektdən əhəmiyyət kəsb edir: “Mən çox şadam ki, indi Azərbaycanda müxtəlif yerlərdə gənc, müasir kadrlar fəaliyyətə başlayır, yetişir. Onlar vətənpərvərlik ruhunda tərbiyə olunub, eyni zamanda, bilikli savadlı gənclərdir. Onlar bizim gələcəyimizdir. Ölkəmizi gələcəkdə də uğurla idarə etmək üçün bu gün güclü gənc kadr potensialı yetişməlidir. Bu məqsədə çatmaq üçün biz müxtəlif imkanlardan istifadə edirik. Bildiyiniz kimi, gənclərimizi xaricdə oxuduruq, onları dövlət hesabına inkişaf etmiş ölkələrin aparıcı ali məktəblərinə göndəririk. Bu, əlbəttə, müsbət təşəbbüs idi və davam edir. Ancaq mən hesab edirəm ki, indi daha çox ölkə daxilində biz elə sistem yaratmalıyıq ki, müasir biliklərə çatmaq, onları əldə etmək üçün bütün imkanlar olsun. Bu sahədə də tədbirlər görülür və görüləcəkdir. Biz yeni texnologiyaları, müasir yanaşmanı tələb edən sahələrə gəncləri daha da çox cəlb etməliyik”.

Cənab Prezident yetişmiş gənc kadrlar, xaricdə təhsil alan gənclər və nəhayət, öz daxili təhsil sistemimizi kompleks şəklində qiymətləndirərək, hökumətin qarşısında duran hədəfləri açıqlamışdır.

Yeri gəlmişkən, qeyd etməliyəm ki, Azərbaycan gənclərinin xarici ölkələrdə təşkilatlanması da uğurla gedir. Bu gün gənclərimiz Avropa və dünyanın otuzdan çox nüfuzlu beynəlxalq gənclər təşkilatında təmsil olunur və bununla da beynəlxalq gənclər hərəkatının fəal tərkib hissəsinə çevrilib. “Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı” isə özünün çoxşaxəli fəaliyyəti ilə onlara əsil nümunə nümayiş etdirir. Qurumun sədri, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşan layihələr Azərbaycan gəncliyinin Rusiya və dünyadakı maraqlarını layiqincə təmsil edir. Bu təşkilatın istər Azərbaycanda, istər ölkədən kənarda keçirdiyi tədbirlər Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasında mühüm rol oynayır.

Nəticədə, Cənab Prezident İlham Əliyevin məqsədyönlü və uğurlu gənclər siyasəti günbəgün öz bəhrələrini verməkdədir. Təsadüfi deyildir ki, hal-hazırda Davos İqtisadi Forumunda Prezidentin müvəffəqiyyətli iştirakı və keçirdiyi görüşlər də bunu təsdiq edir. Məhz aprel ayında Davos iqtisadi Forumunun Bakıda keçirilməsi ilə əlaqədar verilən qərar da Azərbaycanın gənclər siyasətinin inkişafına öz təsirini uğurlu şəkildə göstərəcəkdir.

**Rəşad İlyasov,**
**fəlsəfə doktoru**